**Kazuslar**
**Cinayət ittihamının anlayışı**

**1-ci kazus**
Ancelo Niderland ordusunda xidmət edirdi.O, Niderland orduya cağırış assosiasiyasının sədrliyinə namizəd idi və 17 mart tarixində bölük komandirinə icazə ilə bağlı müraciət etmişdi. O, xəstələnib və öz həkiminin tövsiyələri əsasında evdə qalıb. Daha sonra o, toplantıya getdiyi zaman əvvəlki gün yaşayış yerində olmadığına görə dörd günlük yüngül həbs cəzasına məruz qalıb. Yüngül həbs cəzası o deməkdir ki, hərbi qulluqçu, rütbəsindən asılı olmayaraq, xidmətdən kənar saatlarda adətən baraklarda qapalı qalmalıdır.

Volfqanq Niderland ordusunda əsgər kimi qulluq edirdi. Ona qarşı yolsuzluq şəraitində məsuliyyətsiz maşın sürmək və əmrlərə tabe olmamaq ilə bağlı ittiham irəli sürülmüşdü.O, üç aylıq müddətə ciddihəbscəzasına məruz qalmışdı. Bu tədbir o demək idi ki, sözü gedən şəxslər öz vəzifələrinin icrasını davam etdirirdilər, lakin yerdə qalan vaxtlarını eyni cəzanı çəkən digər hərbçilərlə birlikdə qapalı olmayan, lakin bu məqsəd üçün xüsusi olaraq nəzərdə tutulmuş yerdə keçirməli idilər. Bölük komandirinin yazılı icazəsi olduqda, əməli törətmiş şəxs ziyarətçiləri qəbul edə bilərdi. Yüngül həbs cəzası altında olan şəxslərdən fərqli olaraq onlar baraklarda sərbəst şəkildə hərəkət edə, kinoya, kafeyə və əyləncə yerlərinə gedə bilməzdilər.

Boris "Həyəcan" jurnalının redaktoru idi. Sentyabr sayının paylanması "Yazılaın dərci barədə sərəncamı" pozduğuna görə  qadağan edilmişdi. Bunun hərbi nizam-intizama uyğun olmadığı qənaətinə gəlinmişdi. O üç ay müddətinə intizam hissəsinə məhkum edilmişdi. Bu cəza hərbçinin bu məqsəd üçün xüsusi olaraq nəzərdə tutulmuş quruma göndərilməsini nəzərdə tuturdu. Hərbi xidmətin sonuna doğru əmr edildikdə, bu tədbir bir qayda olaraq şəxsin mülki həyata geri qayıtmasını ləngidirdi. Bu cəzanı çəkənlər öz hissələrindən ayrılıb xüsusi nəzərdə tutulmuş ayrıca qrupa yerləşdirilirlər; onların hərəkətləri məhdudlaşdırılır, onlar hərbi xidmətlərini daimi nəzarət altında keçirirlər və xüsusi diqqət onların təhsilinə verilir. Mümkün dərəcədə hərbçilər gecələri bir-birindən ayrı keçirirlər. Onlara ayda iki dəfə ziyarətçi qəbul etməyə və xidmətdən kənar saatlarda təhsil almağa icazə verilir. İlk 30 gündən sonra hərbçilərə Şənbəvə Bazar günləri müəyyən hərəkət sərbəstliyi verilir və onlar azı həftədə iki dəfə axşamlar xidmətdən sonra yeməkxanaya və ya əyləncə yerlərinə gedə bilirlər.

Hərbi qanunvericiliyə əsasən onların əməlləri intizam xarakteri daşıdığından, onlar cəzalarına səbəb olan icraat zamanı AİHK-nın 6-cı Maddəsində nəzərdə tutulan təminatlardan bəhrələnə bilmirlər. Bu düzgündürmü?

**2-ci Kazus**
Sürəti saatda 40 km və ya daha çox aşmağa görə rəsmi araşdırma nəticəsində tətbiq edilmiş sürücülük vəsiqəsinə verilmiş balların üçdə birinin azaldılması və təkrarlanacağı halda sürücülük vəsiqəsindən məhrumetməyə səbəb ola biləcək əməl AIHK-nın 6-cı maddəsinə əsasən "cinayət işi üzrə ittiham" hesab oluna bilərmi?

**3-cü kazus**
Lorna kiçik bir evin sahibidir və onu təmir etmək ərəfəsindədir. Əmək Müfəttişliyinin yoxlamasının ardından onun qonşularından biri elan edir ki, o, 4 aylıq yarım ştatlıq işə düzəlib. Onun vəzifəsi heç vaxt Əmək Direktorluğuna bəyan edilməmişdi. İnzibati iş açılırvə Lornaya 3000 avro cərimə təyin olunur. O şikayət edərək bildirir ki, onun inzibati orqan qarşısında özünü müdafiə etmək imkanı olmayıb və işə ədalətli şəkildə baxılmayıb. 6–cı maddəyə əsasən şikayət verə bilərmi?

*Hazırladı: İvana Roagna*